# ŞƏRQ FƏLSƏFƏSİ PROBLEMLƏRİ

## Beynəlxalq elmi-nəzəri jurnal

**№ 1. 2012**

**JURNALIN TƏSİSÇİLƏRİ:**
**Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti**
**AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu**
**Jurnalın redaksiya heyəti**

**BAKI – 2012**

*Zümrüd QULUZADƏ*[*]

# XX ƏSRİN SONU XXI ƏSRİN ƏVVƏLİ[*]. MƏNƏVİ MƏDƏNİYYƏT TARİXİ KONTEKSTİNDƏ FƏLSƏFƏ VƏ FƏLSƏFƏ TARİXİNİN TƏDQİQİNİN AKTUAL VƏ MÜBAHİSƏLİ PROBLEMLƏRİ

## Islam bölgəsi fəlsəfəsi də daxil olmaqla, fəlsəfə və fəlsəfə tarixinin tədqiqinə yönəlmiş düşündürən suallar və tədqiqat mövzulari

### Ümumvəhdət fəlsəfi konsepsiya fənlərarası elmi tədqiqatların nəzəri-fəlsəfi metodologiyası kimi

Varlıq maddi və mənəvi [ideal başlanğıcların] vəhdətini ehtiva edən fəlsəfi kateqoriya kimi.

Varlığın ümumvəhdəti ümumvəhdət fəlsəfəsinin əsası kimi.

Ümumvəhdət-kulturoloji və fəlsəfi kateqoriya kimi; XX və XXI əsrin əvvəllərində həmin kateqoriyanın məzmunu haqqında təsəvvürlərin təkamülü.

Təzahür formalarından asılı olmayaraq maddi və ideal, rasional və irrasionalın çulğalaşması və vəhdətini təmsil edən ümumvəhdət konsepsiyasının elmi idrakın ümumi metodologiyası kimi təyin edilməsinin müasir elmin inkişafı baxımından məqsədəuyğunluğu.

Materializm, panteizm, idealizm ümumvəhdət fəlsəfəsinin ifadə formaları kimi; onların fərqi varlığın «ilkin səbəbi», "ilkin başlanğıcı", və ya "ilkin əsası" kimi nəyin, hansı başlanğıcın qəbul edilməsindədir.

Ümumvəhdət fəlsəfi konsepsiya komparativistika və «qeyri-səlis» məntiqin metodoloji prinsiplərilə birlikdə qlobal mədəniyyətin bütöv, vahid sistem kimi tədqiqinin metodoloji əsası.

Komparativistika və qeyri-səlis məntiqin metodoloji prinsipləri ilə uzlaşan Ümumvəhdət fəlsəfi konsepsiya fənlərarası tədqiqatların metodoloji əsası kimi.

Qərb və Şərq mədəniyyət tarixinə, xüsusən müxtəlif regionların fəlsəfəsinə əsaslanaraq mədəniyyətşünaslığın kateqorial anlamları məzmununun dəqiqləşdirilməsində ümumvəhdət fəlsəfi konsepsiyanın bir metodologiya kimi əhəmiyyəti.

«Varlıq" və "yoxluq" [qeyri-varlıq] materializm, idealizm, panteizm və dini təlimlər kontekstində universal fəlsəfi kateqoriyalar kimi.

Müasir elm kontekstində maddi və idealın ümumvəhdəti.

Xiks bozonunun təbiəti fəlsəfənin ümumvəhdət konsepsiyası işığında.

Özünütəşkil – varlığın real mövcud olan bütün fərqləri və «qeyri-səlis»liyi ilə yanaşı qanunauyğunluq və səlisliyinin təzahürü kimi.

Konvergensiya və divergensiya varlığın özüntəşkili təlimi işığında.

«Əqli külli» və «özünütəşkil» anlayışları, onların nisbəti.

---

[*] Fəl.e.d., AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, "Fəlsəfə və ictimai fikir tarixi" şöbəsi, baş e.i., zumrudkulizade@hotmail.com

[*] Elmi redaktor: f.ü.f.d. Səidə Quliyeva.

Özünütəşkil və qanunauyğunluq inkişafın daxili məntiqi, onun «əqli başlanğıcı» kimi dəyərləndirilə bilərmi?

Kosmosun nisbətən stabil mövcudluğu onun daxili qanunauyğunluğunun, yəni «daxili məntiqinin» nəticəsi ola bilərmi? [Problemə sinergetik kontekstdə baxılması].

İrrasionalın, intuisiyanın və Allaha inamın varlığın kodlaşması təlimi ilə bağlılığı [kod, yaddaş-maddi və ideal haqqında məlumatın sintezi kimi].

Fəlsəfədə və elmdə inamın və zəkanın kodlaşması problemi.

Varlığın kodunda vəhdətin [vahidin] və çoxluğun ehtivası.

İnsan genomunun tədqiqində ümumvəhdət metodologiyasının əhəmiyyəti və insan genomunun tədqiqinin nəticələri ümumvəhdət fəlsəfi konsepsiyanın təsdiqi kimi.

Psixologiya və genetika: psixikanın kodlaşması; psixikanın kodlaşması kontekstində intuisiya və metapsixozun şərhi.

Hermenevtika ümumvəhdətin tədqiqinin metodologiyası kimi.

Postqeyriklassisizm epistemologiyası və ümumvəhdət konsepsiyası.

İnformatika [anlayışın məzmunu] ümumvəhdət fəlsəfi konsepsiya kontekstində.

İnternet və ümumvəhdət. XXI əsrdə humanitar və texniki elmlərin sintezində internetin rolu.

Ümumvəhdət konsepsiyası incəsənət və onun tarixinin şərhi metodu kimi.

Qərbin və Şərqin ruhani [dini] musiqisinin və fəlsəfi-estetik cərəyan kimi Romantizmin ümumvəhdət fəlsəfəsi kontekstində tədqiqi.

Postmodernizm XX-XXI əsrlərdə ədəbiyyat və fəlsəfənin ideya mahiyyəti və forma baxımından ifadəsinin mənəvi mədəniyyət tarixi üçün ənənəvi olan üzvi vəhdətinin təsdiqi kimi.

Müxtəlif etno-milli mədəniyyətlərin ənənələrində və dəyər meyarlarında mövcud olan ümumiliyin Ibn Rüşdün panloqizm nəzəriyyəsi işığında şərhi.

Xeyir-İşıq [Nur] -Həqiqət-Allah anlamları müxtəlif xalqların mənəvi mədəniyyətlərində sinonimlər kimi.

«Vəhdət» və «vahid» haqqında təlimlər idrakın müəyyən pillələri kimi.

Ümumvəhdət əksliklərin qarşıdurması və vəhdəti kimi.

Dinlərdə ümumvəhdət ideyasına münasibət.

Dinlərdə və hüquqda zorakılığın mühakiməsi: ona mənfi münasibət və [cəza kimi] yolverilməsi.

Universalilər-dərk olunmuş varlığın vəhdətinin nəticəsi və sübutu kimi.

«Bilik», müdriklik və «cahillik» cəmiyyətin [Qərb və Şərq] mənəvi, xüsusən fəlsəfi mədəniyyətin universal kateqoriyaları kimi.

Allah anlamı fəlsəfi kateqoriya kimi.

Ümumvəhdət konsepsiyası işığında Allahın atributları.

Ümumvəhdət metodoloji konsepsiyası işığında qlobal və regional fəlsəfə tarixlərinin tədqiqi.

“1” [bir] və «o» varlığın və qeyri-varlığın rəmzləri [simvolları] kimi. «1» və «0»-ın birləşməsi [çoxluq] ümumvəhdətin, mövcud olan vahid varlığın müxtəlifliyinin [maddi və ideal olanın] vəhdətinin təzahürü kimi.

Rəqəm və hərflərin ilahiləşdirilməsi varlıqda qanunauyğunluqların «prinsipinin» axtarışı kimi.

Riyaziyyat və fəlsəfədə “1” [varlıq] və “0” [qeyrivarlıq] problemi.

Mistika və elm ümumvəhdətin dərkinə yol [vasitə] kimi.

«Yeni ümumvəhdət» [«неовсединство»] konsepsiyası. Yeni ümumvəhdət konsepsiyasının etik və dini komponentləri.

Müxtəlif dinlərdəki xüsusən Tövrataqədərki və Tövrat folklorunun, folklorun müqayisəli tədqiqi ümumvəhdət fəlsəfəsinin obyektivliyinin dəlili kimi.

Ümumvəhdət konsepsiyası cəmiyyətin humanistləşməsi və tolerantlıq əsasında birləşməsi ideyasının potensial daşıyıcısı kimi.

Varlığın universal fenomeni, qlobal mənəvi mədəniyyətin kateqoriyası, idrak metodologiyası və fənlərarası tədqiqatların metodologiyası olan ümumvəhdət fəlsəfi konsepsiya haqqında informasiyanın Qərb və Şərq təhsil proqramlarına daxil edilməsinin məqsədəuyğunluğu.

Ümumvəhdət və müasir elm» mövzusunda internetdə beynəlxalq elmi-nəzəri seminar keçirilməsinin əhəmiyyəti.

## Komparativistika və "qeyri-səlis" məntiq tədqiqat metodologiyaları kimi

III minilliyin başlanğıcının əsas siyasi, əxlaqi, dini dəyərləri və onların təzahürlərinin müxtəlif etnomilli və bölgə mədəniyyətlərində müqayisəli təhlili.

Komparativist tədqiqatlar prosesində vahid yaxud da nisbətən oxşar standartların olması tələbi.

Sinxronluq komparativist yönümlü tədqiqatların obyektivliyinin şərti kimi

Elmi tədqiqatların metodologiyası kimi formal, dialektik və qeyri-səlis məntiqin müqayisəli analizi və qiymətləndirilməsi.

Komparativistikaya əsaslanan müasir elmi işığında mövcud ümumfəlsəfi metodologiyaların korrektəsi və yeni ümumfəlsəfi metodologiyaların axtarışının aktuallaşması.

Postsovet məkanında yeni tədqiqat metodologiyalarının axtarışı. Dialektik materializmə münasibət.

Fəlsəfi təlim, ədəbiyyat, musiqi, arxitektura və digər formalarda ifadəsini tapmış ezoterizm, alleqoriya, metaforaların müqayisəli tədqiqi ümumvəhdət fəlsəfi konsepsiyanın təsdiqi kimi.

Ümumvəhdət fəlsəfəsi işığında J.R.Priqojinin nəzəriyyəsi*.

Lütfizadə nəzəriyyələri XX-XXI əsrlərdə sosiomədəni, xüsusən, elmin inkişafı kontekstində varlığın qanunauyğunluqları haqqında mövcud elmi təsəvvürlərin dəyərləndirmə və korrektə edilməsində yeni mərhələyə keçid imkanı kimi.

«Səlis» və «qeyri-səlis» məntiq varlığı vəhdət və bütövlükdə dərk edən fəlsəfi idrak nəzəriyyəsinin qanunauyğun fenomenləri kimi; onların III minilliyin əvvəllərində sosiomədəni inkişafın işıqlandırması və şərhində yeri.

Ümumvəhdət konsepsiyasının fəlsəfi metodologiya kimi XXI əsrin əvvəllərində sosiomədəni problemlərin elmi tədqiqi prosesində əhəmiyyəti.

---

* Bu mövzunu Azərbaycan AMEA-nın mərhum Prezidenti akademik Mahmud Kərimov təklif etmişdi.

Müasir fəlsəfi təhsil sistemində Lütfi Zadə irsinin yeri.

XX-XXI əsr sosiomədəni inkişaf qanunauyğunluqları kontekstində müxtəlif regionların o cümlədən, Qərb və Islam dünyası fəlsəfi mədəniyyətlərinin tipoloji baxımından müqayisəli təhlili.

«Vəhdət əl vücud», ümumvəhdət fəlsəfəsi və «Qərb panteizmi» anlayışlarının müqayisəli tədqiqi.

İslam regionu, Çin və Hind fəlsəfəsinin ontologiya, dinə münasibət, qnoseologiya, etika, sosial baxışlar və mistika sahəsində, əsas müddəalarının müqayisəli analizi.

İslam bölgəsinin müvafiq konsepsiyaları ilə Uzaq və Yaxın Şərq dini-fəlsəfi, fəlsəfi, həmçinin mühüm elmi-nəzəri konsepsiyaların İslam bölgəsinin müvafiq müqayisəli struktur tipoloji təhlili.

Müxtəlif dinlərlə bağlı bidətlərin fəlsəfəsinin müqayisəli tipoloji təhlili.

İslam və xristian mistisizminin müqayisəli təhlili.

Rus dini-mistik fəlsəfəsinin Şərq hindu-müsəlman mistik fəlsəfəsi ilə müqayisəli təhlili.

Müxtəlif regionların eposlarının müqayisəli təhlili.

XX və XXI əsrin əvvəlində Rusya da daxil olmaqla Qərb və Şərq fəlsəfə ensiklopediya və fəlsəfi lüğətlərində əsas fəlsəfi kateqoriyaların təriflərinin müqayisəli təhlilinin məqsədəuyğunluğu.

Mədəni qloballaşma, yaxud mədəniyyətlərin inteqrasiya dönəmində müxtəlif mədəni bölgələrdə [Amerika, Qərbi Avropa, Hindistan, Yaponiya, Çin, Islam regionu ölkələri] fəlsəfə və fəlsəfə tarixi tədrisinin proqram və metodikalarının müqayisəli təhlilinin aktuallığı.

Ən yeni dövrün [XX-XXI əsrlər] fəlsəfə lüğətləri və fəlsəfə ensiklopediyalarında metafəlsəfə ilə bağlı anlam və problemlərin müqayisəli təhlili.

Fəlsəfə lüğətləri və Fəlsəfə ensiklopediyalarının əsasında duran konseptual prinsiplərin müqayisəli təhlili.

Yeni Fəlsəfə Ensiklopediyasında [Новая Философская Енциклопедия. Moskva, 2010] və 1960-1970-ci illərdə Moskvada nəşr edilmiş Fəlsəfə ensiklopediyasında [Философская Енциклопедия] sovet və postsovet ölkələri xalqlarının fəlsəfəsinin əks olunmasının müqayisəli təhlili.

Şərq və Qərbin musiqi estetikası və musiqi tarixində mistik-panteist fəlsəfənin təzahürünün komparativist metodla tədqiqi.

Mədəniyyət tarixində «dünyanın sonu» ideyasının universallığı.

«1», «3», «4», «7» və.s. rəqəmlərinin müqəddəsləşdirilməsinin qnoseoloji kökləri; hadisənin fəlsəfi və elmi təsəvvürlərlə bağlılığı.